Təsdiq edirəm

Azərbaycan Kooperasiya Universitetinin rektoru

Prof. Eldar Quliyev

"25" may ." 2023-cü il

Azərbaycan Kooperasiya Universitetinin

Elmi Şurasının 23 may 2023-cü il tarixli

iclasının məvcudluğu ilə (protokol №04)

təsdiq edilmişdir

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

SƏNƏDİ

Mündəricat

I Giriş 3
II Sənəd haqqında 4
III Keyfiyyət Təminatı Siyasətinin məqsədi 4
IV Missiya, Gələcəyə baxış, Dəyərlər, Hədəflər 5
1. Missiya 5
2. Gələcəyə baxış 5
3. Dəyərlər 5
4. Hədəflər 6
V. Keyfiyyət Təminatı Siyasəti 7
VI AKU-nun Daxili Keyfiyyət Təminatı Sistemi 8
VII Keyfiyyət mədəniyyətinin formalaşdırılması 8
VIII Monitorinq və qiymətləndirmə 9

Giriş

Ali təhsil müəssisələri sürətlə dəyişən dünyada maraqlı tərəflərin istək və ehtiyaclarını çevik şəkildə təmin etmək bacarığına malik olmalıdırlar. Məhz bu səbəbdən də ali təhsil müəssisələrində qurulan keyfiyyət təminatı sistemi hesabatlılıq və şəffaflıq prinsiplərinə uyğun olaraq maraqlı tərəflər ilə ali təhsil müəssisəsi arasında qarşılıqlı etimad mühitinin yaradılmasını təmin etməlidir.

Bu məqsədlə Azərbaycan Kooperasiya Universitetinin

- ✓ Keyfiyyət Təminatı Siyasətinin məqsədi,
- ✓ Missiya, Gələcəyə baxış, Dəyərlər, Hədəflər,
- ✓ Keyfiyyət Təminatı Siyasəti,
- ✓ Keyfiyyət Təminatı Sistemi və onun davamlılığı,
- ✓ Keyfiyyət mədəniyyətinin formalaşdırılması,
- ✓ Monitorinq və qiymətləndirmə,

haqqında məlumatları bu sənəddə xüsusi olaraq işlənib təhlil edilmişdir. AKU-nun keyfiyyət idarəetmə modeli bütün maraqlı tərəflərə aydın olması üçün hazırlanmışdır.

Sənəd haqqında

Azərbaycan Kooperasiya Universitetinin (AKU) Keyfiyyət Təminatı Siyasəti sənədi "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nın prinsipləri, "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"na, Avropa Standartları və Təlimatlarına (The Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area-ESG), AKU-nun strateji inkişaf planına əsaslanaraq hazırlanmışdır.

Qlobal dünyanın tələb etdiyi inkişafa uyğunlaşa bilmək üçün ali təhsil müəssisəsi biznes mühitinin və bütövlükdə, əmək bazarının tələbini müəyyənləşdirmək məqsədilə maraqlı tərəflərin ali təhsil müəssisəsində aktiv şəkildə fəaliyyətdə olmasına çalışmalıdır.

Azərbaycan Kooperasiya Universitetinin Keyfiyyət Təminatı Siyasəti Azərbaycan Respublikasının təhsil siyasətini nəzərə almaqla, universitetin Strateji İnkişaf Planının hədəflərinə nail olmağa və təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmişdir.

Azərbaycan Kooperasiya Universitetinin Keyfiyyət Təminatı Sistemi daxili və xarici keyfiyyət mexanizmlərini birləşdirən "keyfiyyət", "təlim-tədris", "elmi tədqiqat", "sosial töhvə", "beynəlmiləlləşmə" proseslərini əhatə edəcək şəkildə davamlı inkişafın təmin edilməsi ilə keyfiyyət mədəniyyətinin formalaşdırılmasını əhatə etməkdədir.

Keyfiyyət təminatı siyasətinin məqsədi

Keyfiyyət təminatı siyasətinin məqsədi öyrənmə, tədris, tədqiqat, idarəetmə, beynəlmiləlləşmə kimi əsas fəaliyyətlərinin effektivliyini artırmaqdır. Keyfiyyət təminatı siyasəti Universitetin Strateji hədəflərini və onlara uyğun olaraq universitetin fəaliyyətinin bütün sahələrini əhatə edir.

Missiya, Gələcəyə baxış, Dəyərlər, Hədəflər

1. Missiya

"Ümumbəşəri dəyərlər çərçivəsində yaradıcı və tənqidi düşüncə, innovasiya və liderliyi inkişaf etdirərək ölkənin ən yaxşı təhsil ənənələrinə və Avropanın təhsil sistemi tələblərinə əsaslanaraq, iqtisadiyyat, mühəndis-texnoloji və sosial bilikləri birləşdirərək qabaqcıl, fundamental və tətbiqi tədqiqatlar, innovasiya imkanları və beynəlxalq elm-təhsil məkanına inteqrasiya olunmaqla Azərbaycanın inkişafına töhfə vermək".

2. Gələcəyə Baxış

"Universitetimizi təhsil, tədqiqat və innovasiyalarla, cəmiyyətə və ətraf mühitə gətirdiyimiz faydalara görə Azərbaycanda fəaliyyət göstərən rəqabətqabiliyyətli aparıcı ali təhsil müəssisələri sırasına çıxarmaq".

3. Dəyərlər

AKU - nun əsas dəyərləri. Dünya təhsil sisteminə uyğun olaraq demokratiyaya, insanların bərabər dəyərinə, insan hüquq və azadlıqlarına, azad və açıq müzakirələrə əsaslanır.

- İnteqrasiya: Tədrisin keyfiyyətini artırmaq və beynəlxalq təcrübədən yararlanmaq məqsədilə xarici universitetlərlə əlaqələri genişləndirmək, dünya universitetləri ilə ikili və çoxtərəfli layihələrə qoşulmaq, akademik mobilliyə imkan yaratmaq.
- İctimai etimad: Dünyada mövcud olan elmi, nəzəri və fundamental bilik bazalarından akademik etikaya riayət etməklə və müəllif hüquqlarını qorumaq şərtilə faydalanmaq.
- İnnovativlik: Müasir cəmiyyətin ehtiyac və tələbatına uyğunlaşmaq məqsədilə tədris prosesini innovasiyalarla zənginləşdirmək, informasiya texnologiyalarından geniş istifadə etmək, mediada baş verən yeniliklərdən xəbərdar olmaq və informasiya savadlılığını artırmaq.
- Yaradıcılıq: Tənqidi təfəkkür, tənqidi düşüncə və müstəqil fəaliyyəti qiymətləndirmək.

•Çeviklik: Şəraitə uyğun olaraq müxtəlif metod və üsullardan istifadə etmək, yaranmış problemləri dərhal aradan qaldıraraq, təhsilin davamlılığını qorumaq və inkişaf etdirmək.

4. Hədəflər

- AKU-nun Azərbaycanın aparıcı universitetlərindən biri kimi mövqeyinin möhkəmləndirilməsi;
- Tədrisin müasir dövrün tələblərinə uyğunlaşdırılması və beynəlmiləlləşdirilməsinin təmin edilməsi;
- Elmi fəaliyyətin artırılması ilə tədris prosesini təhsilalanlarda zəruri bilik və bacarıqları formalaşdırmağa imkan verəcək səviyyədə daim təkmilləşdirmək;
- Sosial rifah və məzunların karyera imkanlarının yaxşılaşdırılması;
- Universitetin idarəetmə sisteminin təkmilləşdirilməsi;
- Rəqəmsallaşma və maddi-texniki bazasının müasirləşdirilməsi;
- Universitetdə şəffaf və obyektiv təhsil mühitinin yaradılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, yeniliyin və müasirliyin təmin edilməsi, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi;
- Pandemiya dövründə özünü təsdiq etmiş distant təhsil texnologiyalarının daha da inkişafına nail olmaq;
- Universitetdə ictimai-idarəetmə strukturlarının yaradılması;
- Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün müasir stimullaşdırılma metodlarından istifadə;
- Universitet üçün əlavə tədris-yataqxana korpusunun layihəsinin hazırlanması;
- Universitetdə elektron kitabxana şəbəkəsinin təkmilləşdirilməsi;
- Universitetdə hər təhsilalana düşən xərc əsasında maliyyələşdirmə mexanizminin həyata keçirilməsi.

Keyfiyyət Təminatı Siyasəti

Azərbaycan Kooperasiya Universitetinin keyfiyyət təminatı siyasəti hər zaman institusional müvəffəqiyyətə üstünlük verən, tədris ili ərzində lazımi işlərin vaxtında yerinə yetirilməsini etiva edən idarəetmə anlayışına əsaslanır. Keyfiyyət Təminatı Siyasəti universitetimizin məqsəd, hədəf və arzu olunan nəticələrə nail olması üçün bütün universitetdə davam edən keyfiyyət təminatı mədəniyyətinin və keyfiyyətin yaxşılaşdırılması proseslərinin inkişafına töhvə verəcək işlərə rəhbərlik etməyi, eyni zamanda əmək bazarının tələblərinə uyğun kadr hazırlamaq, tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemini həyata keçirmək, AKU-da elmi tədqiqat və təlim-tədris prosesləri arasında əlaqəni təmin etmək, akademik və inzibati heyətin, həmçinin tələbələrin inkişafını dəstəkləyən səmərəli Keyfiyyət təminatı sistemi qurmağı hədəfləyir. O cümlədən, akademik dürüstlük və azadlıq, akademik saxtakarlığa qarşı mübarizəyə önəm verir. Azərbaycan Kooperasiya Universitetinin fəaliyyətinin milli və beynəlxalq standartlara cavab verməsini təmin etmək, məzunları uğurlu karyera həyatına hazırlamaq üçün fənn proqramlarının tərtibi və yenilənməsi prosedurları həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, AKU-nun Keyfiyyət təminatı siyasəti strateji idarəetmənin bir hissəsini təşkil edir.

- Universitetin missiyasına, məqsəd və hədəflərinə uyğun gələcək planların idarə edilməsi;
- Proseslərin universitetin strateji planında müəyyən olunmuş dəyərlərə uyğun aparılması;
- Bütün fəaliyyət sahələrini əhatə edən inteqrasiya olunmuş keyfiyyət təminatı sistemi üçün təşkilati strukturun yaradılması;
- Yerli və beynəlxalq əmək bazarlarındakı tendensiyaların mütəmadi izlənilməsi, yeniliklərə daim açıq olması, "yaşıl iqtisadiyyat" ilə əlaqəli ixtisaslara önəm verilməsi;
- Dəyişən dünyaya uyğunlaşma bacarığına malik, əmək bazarının tələblərinə uyğun rəqabətqabiliyyətli məzunların yetişdirilməsi məqsədi ilə təlim-tədris proseslərinin XXI əsrin tələblərini nəzərə alaraq milli və qlobal ehtiyaclara uyğun tərtib edilməsi və yenilənməsi;
- Maraqlı tərəflərin proseslərə aktiv şəkildə cəlb olunması, onların məmnunluğunun müəyyənləşdirilməsi və təmin olunması;
- İnnovativ təlim metodlarını tətbiq edərək təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət göstərilməsi;
- AKU-nun milli və beynəlxalq rəqabət qabiliyyətinin artırılması;
- Akademik dürüstlük və azadlıq, akademik saxtakarlığa qarşı mübarizəyə önəm verilməsi;

- Daxili qiymətləndirmə və monitorinqin davamlılığını, eyni zamanda akkreditasiya proseslərinin uğurla nəticələnməsinin təmin edilməsi;
- Ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasının təmin edilməsi.

Daxili Keyfiyyət Təminatı Sistemi

Azərbaycan Kooperasiya Universiteti öz missiyası, gələcəyə baxışı, məqsədləri, hədəfləri və keyfiyyət siyasətinə uyğun olaraq, mərkəzləşdirilmiş daxili keyfiyyət təminat sistemi, keyfiyyət mədəniyyətinin formalaşdırılması, təlim-tədrisin davamlı olaraq təkmilləşdirilməsi, zəruri keyfiyyət standartlarının təmin edilməsi, elmi tədqiqat fəaliyyətlərini, bütün maraqlı tərəflərin iştirakını, onların məmnunluğunu və birgə fəaliyyətin davamlılığını təmin etmək prinsipini həyata keçirən daxili keyfiyyət təminatı sistemini qəbul edir.

Keyfiyyət təminatının inkişaf etdirilməsi, yüksək səviyyədə təlim-tədris prosesinin təşkil olunması, kurikulumun, elmi tədqiqat işlərinin, akademik fəaliyyətin və keyfiyyət standartlarının təmin edilməsi universitetin strategiyasının bir hissəsidir.

Keyfiyyət mədəniyyətinin formalaşdırılması

Effektiv keyfiyyət mədəniyyəti yaratmaq məqsədilə

- Universitetdə bütün akademik və inzibati prosesləri əhatə edəcək keyfiyyət siyasətinin olması;
- Əməkdaşlar arasında "təhsil keyfiyyəti" konsepsiyası üzrə vahid tərifin və təhsil keyfiyyəti probleminə vahid yanaşmanın formalaşması;
- Maraqlı tərəflərlə səmərəli ünsiyyət qurulmalı, onların istək və gözləntiləri nəzərə alınmalı;
- Akademik və inzibati heyət ilə rəhbərlik arasında effektiv kommunikasiyanın olması;
- Hər bir əməkdaş üçün təhsil keyfiyyətinin mahiyyəti və iş yerində yüksək keyfiyyət əldə etmək tələbinin vacibliyinin mənimsənilməsi.

İdarəetmə prosesində tələbələrin daim dəyişən ehtiyaclarını, gözləntilərini və ya qərarlarını nəzərə almaq da keyfiyyət mədəniyyətinin mühüm bir hissəsini təşkil edir. Keyfiyyət mədəniyyəti müvafiq tərəflərin maraqlarının qarşılanmasını, eləcə də ixtisaslı mütəxəssis hazırlığı və xidmətlərin keyfiyyətinin davamlı olaraq artırılmasını hədəfləyən ortaq dəyər, inam və

normalar sistemidir. Onu da qeyd etmək lazımdır ki, keyfiyyət mədəniyyəti universitetin hər bir sahəsində - tələbə qəbulu, təhsil, tədqiqat və idarəetmədə özünü büruzə verir. AKU hesabatlılıq, ortaq dəyərlərə malik olma, dayanıqlı inkişaf, inklüzivlik, qiymətləndirmə və dəyərləndirmə, maraqlı tərəflərin məmnunluğunu özündə etiva edən Keyfiyyət mədəniyyəti prinsiplərə önəm verir.

Monitorinq və qiymətləndirmə

Monitorinq və qiymətləndirmə keyfiyyət təminatının mühüm komponentlərindəndir. Monitorinq və qiymətləndirmə bölməsi keyfiyyət təminatı siyasəti və prosedurlarının effektivliyini qiymətləndirmək, zəruri hallarda təkmilləşdirmələr etmək üçün istifadə olunan prosesləri, prosedurları təsvir edir. Azərbaycan Kooperasiya Universitetində monitorinq və qiymətləndirmə proseslərini Keyfiyyət təminatı şöbəsi və şöbə yanında kiçik işçi qrupu tərəfindən həyata keçirilə, aparılan monitorinqlərin nəticələri Keyfiyyət komissiyası tərəfindən müzakirə edilə bilər.

Sənədi hazırladı: AKU-nun Elmi katibi, i.e.d. E.Ə.İbrahimov
"Keyfiyyət təminatı" şöbəsinin müdiri
A.Z.Quliyeva